"İnformasiya təhlükəsizliyinin aktual problemləri"
**III respublika elmi-praktiki seminarının**
# Q Ə R A R I

Bakı ş. 8 dekabr 2017-ci il

Bünövrəsi ümummilli lider tərəfindən qoyulmuş İKT siyasəti hazırda Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Azərbaycanda informasiya cəmiyyəti texnologiyaları infrastrukturu yüksək sürətdə formalaşaraq, biliklər cəmiyyətinin bərqərar olmasına möhkəm zəmin yaradır. Belə bir şəraitdə “Azərbaycan 2020: Gələcək baxış“ İnkişaf Konsepsiyasının, “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”nın müdəalarını, Azərbaycan Respublikası Prerzidentinin irəli sürdüyü müvafiq tezisləri, beynəlxalq çağırışları, informasiya əsrinin reallıqlarını əsas götürərərək, Milli İnformasiya Təhlükəsizliyi Sistemini təkmilləşdirmək, sürətlə dəyişən situasiyaya çevik reaksiya verə biləcək təhlükəsizlik mexanizmlərini formalaşdırmaq tələb olunur. Bu məsul vəzifə elmi ictimaiyyət qarşısında mühüm elmi-tədqiqat problemləri və innovativ həllər axtarışı məsələlərini qoymuşdur. Bu baxımdan, alim və mütəxəssislərin iştirakı ilə informasiya təhlükəsizliyinin təmini məsələlərinə həsr olunmuş müxtəlif tədbirlərin və elmi toplantıların keçirilməsi çox önəmlidir.

"İnformasiya təhlükəsizliyinin aktual problemləri" III respublika elmi-praktiki seminarı bu qəbil tədbirlərdəndir. Seminarın keçirilməsində əsas məqsəd ölkənin informasiya təhlükəsizliyi siyasətinin həyata keçirilməsinə elmi dəstək verməkdir. Seminar informasiya təhlükəsizliyi problemləri istiqamətində bilik və təcrübə mübadiləsinin aparılması, bu sahədə beynəlxalq aləmdə aparılan elmi tədqiqatlarla

tanışlıq və Azərbaycan alimlərinin diqqətini bu sahəyə yönəltmək baxımından mühüm əhəmiyyətə malikdir.

Seminarda Əşyaların İnternetinin təhlükəsizliyi, Big Data mühitində informasiya təhlükəsizliyi, uşaqların İnternetdə qorunması, bulud texnologiyaların təhlükəsizliyi, soft-kompütinq vasitəsilə proqram təminatının etibarlığı kimi aktual elmi-tədqiqat problemləri geniş müzakirə olunmuşdur.

Yuxarıda deyilənlər nəzərə alınaraq qərara alındı:

1. "İnformasiya təhlükəsizliyinin aktual problemləri" III respublika elmi-praktiki seminarının işi məqbul hesab edilsin;
2. İnformasiya təhlükəsizliyi üzrə elmi tədqiqatların genişləndirilməsi, dərinləşdirilməsi və keyfiyyətinin daha da yüksəldilməsi üzrə tədbirlər görülsün;
3. Milli informasiya təhlükəsizliyi sisteminin formalaşdırılması üzrə təkliflər işlənsin və əlaqədar qurumlara təqdim olunsun;
4. İnformasiya təhlükəsizliyi məsələlərinin cəmiyyətə çatdırılması, populyarlaşdırılması, cəmiyyətin maarifləndirilməsi üzrə tədbirlər həyata keçirilsin.
5. AzScienceNet-in informasiya təhlükəsizliyi siyasəninin təkmilləşdirilməsi, informasiya təhlükəsizliyi üzrə korporativ siyasətlərin, prosedurların işlənməsi və tətbiqi üzrə müvafiq işlər həyata keçirilsin.
6. Elmi tədqiqatlarda intellektual texnologiyaların geniş tətbiqi ilə informasiya təhlükəsizliyi sahəsində innovativ yanaşmalar işlənsin və tətbiq edilsin.
7. Seminarın materiallarının Təhsil Nazirliyinin elmi-tədris müəssisələri və onların kitabxanalarına, Milli Elmlər Akademiyasının müvafiq qurumlarına, həmçinin əlaqədar təşkilatlara yayılması təmin edilsin;
8. İnformasiya təhlükəsizliyi sahəsində ölkə daxili və beynəlxalq əlaqələrin və müvafiq koordinasiya mexanizmlərinin təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilsin;
9. İnformasiya təhlükəsizliyi problemləri üzrə respublika seminarının növbəti illərdə keçirilməsi qərara alınsın.

10. Seminara təqdim olunan məruzələr genişləndirilib "İnformasiya Texnologiyaları Problemləri" və "İnformasiya Cəmiyyəti Problemləri" jurnallarında çap olunsun;
11. Seminarın təşkilində və keçirilməsində göstərdikləri dəstəyə görə təşkilat komitəsinə, proqram komitəsinə və işçi qrupa təşəkkür bildirilsin.